# POEZİYA – DÜNYAMIZIN SÖZ ÜZÜ

Balayar Sadiq... Çatma qaş, duru və parlaq göz, dalğalı saçlar... Ağzını açan kimi sözünə özünə yaraşan don biçmək və ən başlıcası, sözü yarpaq-yarpaq mənaya bükmək.

Bu, Balayar Sadiqin şairliyinin görünən tərəfidir. Onun zəngin, az qala dünyanın yeddi min yeddi yüz yetmiş yeddi rənginə və hər rəngin də öz çalarına uyğun söz seçimi ilə təzahür edən poetik yaradıcılığı daima qeyri-adi obrazları ilə müşayiət olunur.

Bəzən poetik örnəyi poetik hissdən, həyəcandan, obrazlı duyğudan ayırmaq asan olur və bu zaman təəssüf dolu bir təəssürat varlığını çulğayır. Sanki oxuduğun parça ona verdiyin hissdən, duyğudan ibarət imiş. Amma Balayarda belə deyil.

Adına yaraşan bir sədaqətlə sözün dərinliklərinə doğru yeriməkdə həmişə sabitqədəmdir: "Misra-misra daş ataram varaqların yuxusuna, Ne olaydı bu bəyaz gölün gözlərində gölün yuxusuna". Poetik duyğu şeirin içərisinə elə hopub ki, onu nəsrlə də yazsan yenə də elə həmin gücdə olacaq, həmin gücdə özünü göstərəcək.

Bu misraları oxuyanda gözlərimin önünə gəldi durğun gölün sahilində dayanıb daş atardıq. Zəif dalğaların zərif halqaları daşın düşdüyü yerdən gölün kənarına doğru yayılardı. Beləcə, gölün durğun yuxusu sınardı. Sanki Balayarın şeirləri düşüncənin durğunluğuna atılan daş kimi onu hərəkətə gətirir, dalğalandırır.

İnsan durğunluğa qapıldıqca cəmiyyət öz rəngini itirir. Bəlkə də, elə şairin missiyası budur ki, o, insan düşüncələrinə təkan versin, onu hərəkətə gətirsin. Axı el dilində söz var; su da bir yerdə qalsa...

Balayarın həm forma, həm də məzmunca fərdi yaradıcılığı göz işlədikcə uzanan - çay qırağından tutmuş dağ döşünəcən yayılan bir çəmənə bənzəyir. Bu çəmənin gəraylısı, bu çəmənin sonetləri, bir sözlə, hər bir məqama görə biçilmiş forma gözəllikləri ruhumuzu oxşayır. Mənə elə gəlir ki, Balayar hər bir şeirilə insanlığın nə demək olduğunu saat taqqıltısı kimi insanın beyninə diktə edir. Balayarın şeirləri yaşamağı təkcə cismən yaşamaqla yox, həm də sevə-sevə yaşamaqla, bu həyatı gözəlləşdirməklə onu daha yaşarı etmək istəklərindən doğulur.

"Ömrün gəraylı çağları" (2014), "Payız məktubları" (2016), "İslanmış göz yaşı" (2020)... Balayarın poetik ümmanından əlimdə üç kitab var. Bu kitablardan aldığım ilkin təəssürat budur: nəinki hər kitab ayrıca yazı istəyir, hətta hər şeir ayrıca vəsfə layiqdir.

Ömür vəfa etsə...

*(Davamı var)*

*Əli Rza XƏLƏFLİ*
*09.03.2021*

Kredo 2021.- 10 mart.- S.1.